# Narkotiklər haqqında həqiqəti öyrənək

***Bu gün bəşəriyyəti düşündürən və narahat edən ən ağrılı problemlərdən biri də cəmiyyətin ciddi bəlasına, xalqın, millətin gələcəyi üçün təhlükə mənbəyinə çevrilən narkomaniyanın elmi anlayışı ilk dəfə XVIII əsrin əvvəllərində verilmişdir. İyirminci yüzilliyin sonunda isə narkomaniya ümumbəşəri bəlaya çevrilərək ayrı-ayrı xalqların genofonduna sarsıdıcı zərbələr vuran, qarşısının alınması böyük çətinliklər, külli miqlarda xərclər bahasına başa gələn neqativ bir hal almışdır.***

***Problemin ictimai təhlükəliliyi isə ondan ibarətdir ki, bu cinayət həmişə gizli şəraitdə baş verir, nəzarətdən kənarda qalır və durmadan artır.***





Gənc nəslin bu bəladan qorunması, yeniyetmələrin sağlam həyat tərzi keçirməsi və ziyanlı vərdişlərdən uzaq durması, həmçinin əhali arasında bununla bağlı maarifləndirmə işlərinin genişləndirilməsi məqsədi ilə Qəbələdə "Narkotiklər haqqında həqiqəti öyrənək" mövzusunda tədbir keçirilib.

Qəbələ Rayon İcra Hakimiyyətinin Azərbaycan Respublikası Narkomanlığa və Narkotik vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə Üzrə Dövlət Komisiyasının İşçi Qrupu ilə birgə təşkil etdiyi tədbirdə ümumtəhsil məktəblərinin yuxarı sinif şagirdləri, gənclər, əmək kollektivlərinin və ictimaiyyətin nümayəndələri iştirak edib.

Tədbiri rayon icra hakimiyyəti başçısının birinci müavini Abil Ağasəfov açıb. O, narkomaniyanın böyük bir bəla olmasından, ailələrə gətirdiyi bədbəxtliklərdən, bu dəhşətli bəlaya qarşı mubarizə sahəsində rayonda görülən işlərdən ətraflı danışıb.

Sonra mövzu ilə bağlı Azərbaycan Respublikası Narkomaniya və Narkotik vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə Üzrə Dövlət Komissiyası İşçi Qrupunun üzvü Vasif Quliyev çıxış edib. O, respublikamızda narkomaniyaya qarşı mübarizənin gündən-günə artmasına baxmayaraq, narkomanların sayının da bu mübarizə ilə bərabər artdığını, narkotik vasitə istifadəçilərinin çoxunu gənclər təşkil etdiyini bildirib.

Narkotikdən istifadənin ailələrin dağılmasına, cinayətkarlığa, cəmiyyətin digər böyük bəlası olan QİÇS xəstəliyinə gətirib çıxardığını deyən Vasif Quliyev psixotrop maddələrin insanlarda həm də asılılıq yaratdığını, narkomanın isə narkotik vasitəni almağa pulu olmadıqda hər cür vasitəyə- oğurluğa, adam öldürməyə və digər cinayətlərə əl atdığını diqqətə çatdırıb.

Daha sonra işçi qrupun digər üzvü Eldar Sadıqov çıxış edərək narkomaniya ilə mübarizənin nəinki dövlətin, həmçinin cəmiyyətin hər bir fərdinin borcu olduğunu, bu bəlanın hər bir fərdin özünün, özünə yaxın olan bir insanın başına gələ biləcəyini vurğulayıb, bu xəstəlikdən ölənlərin sayının digər xəstəliklərdən ölənlərin sayından çox olduğunu bildirib.

Tədbirdə rayon gənclər və idman idarəsinin rəisi Fəxri Soltanov, turizm və otelçilik üzrə peşə tədris mərkəzinin direktoru Eyvaz Kazımov, şəhər 5 nömrəli məktəbin direktoru Zərnişan Ağakişiyeva və digərləri çıxış ediblər.

Çıxış edənlər bu xəstəliyin bütün bəşəriyyət üçün çox təhlükəli bəla olduğunu bildirərək, gənclərin "ağ ölüm" adlanan narkotik vasitələrə və psixotrop maddələrə aludəçiliyinə qarşı mübarizədə hamını fəal olmağa, cəmiyyəti bu bəladan qorumaq üçün adamlar arasında maarifləndirmə işlərini gücləndirməyə səsləyiblər.

**«Qəbələ»**
**İlkin Vəlizadə (foto).**

*Məşğulluq mərkəzində*

# Peşə seçimində valideynlərin rolu

***Qəbələ Rayon Məşğulluq Mərkəzi «Peşə seçimində valideynlərin rolu» mövzusuna həsr olunmuş növbəti maarifləndirici tədbir keçirmişdir. Qəbələ şəhər 1 saylı tam orta məktəbin akt zalında baş tutan tədbirdə yuxarı sinif şagirdləri, müəllimlər, valideynlər iştirak etmişlər.***





Tədbiri giriş sözü ilə məşğulluq mərkəzinin direktoru Elxan Səlimov açmış, müasir dövrümüzdə işlə təmin olunmaq üçün düzgün peşə seciminin çox aktual məsələ olduğunu diqqətə çatdırmışdır. Elxan Səlimov çıxışında gənclərin peşələrə düzgün istiqamətləndirilməsində müəllimlərin və valideynlərin rolunun böyük olduğunu bildirmişdir. Bununla belə valideyn övladını təkidlə sevmədiyi peşəyə yönəltməməlidir. Təcrübə göstərir ki, valideyn məsləhəti ilə övlad istəyi peşə seçimində üst-üstə düşdükdə həmin kadr həyatda daha fəal mövqe tuta bilir. Seçdiyi peşə ilə məşğulluq ona zövq verməklə, cəmiyyət üçün də xeyirli şəxsə çevirir.

Mövzu ilə əlaqədar Respublika Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidmətinin əməkdaşı Rəşad Əskərli, rayon icra hakimiyyətinin məsul işçisi Ramil Qəribov, təhsil şöbəsinin inspektoru Rasim Bayramov, 1 nömrəli tam orta məktəbin direktor müavini Nurdanə Müzəffərova çıxış etmişlər.

Təhsilin innovativ inkişaf mərkəzinin təlimçisi Seymur İlham peşə seçimi ilə əlaqədar müxtəlif maraqlı video çarxları izahlı şəkildə nümayiş etdirmişdir. Təlimçinin işi şagirdlərlə canlı dialoq, sual-cavab şəklində keçdiyindən çox maraqla qarşılanmışdır.

Tədbiri məşğulluq mərkəzinin direktoru Elxan Səlimov yekunlaşdırmışdır.

**«Qəbələ»**
**İlkin Vəlizadə (foto).**

# Dəyirmi masa keçirilib

***Qəbələ Rayon Məşğulluq Mərkəzi tərəfindən "Sığorta ödənişini alan şəxsin işsiz kimi qeydiyyata alınma şərtlərinin və müddətlərinin müəyyən edilməsi barədə işəgötürənlərin məlumatlandırılması" mövzusunda "dəyirmi masa" keçirilib. Dəyirmi masada yerli müəssisələrin nümayəndələri iştirak edib.***



Tədbiri mərkəzin direktoru Elxan Səlimov açaraq işaxtaran və işsiz vətəndaşların sosial müdafiəsi sahəsində mərkəz tərəfindən həyata keçirilən məşğulluq tədbirləri, sığorta ödənişini alan şəxsin işsiz kimi qeydiyyata alınma şərtlərinin və müddətlərinin müəyyən edilməsi ilə bağlı işəgötürənlərin vəzifələri barədə geniş məruzə etmişdir.

Sonra "dəyirmi masa"da idarə, müəssisə rəhbərlərinin və məşğulluq mərkəzinin üzərinə düşən vəzifələr haqqında diskussiya aparılmışdır.

Tədbirdə DSMF-nin rayon şöbəsinin müdiri Elçin Əliyev aztəminatlı əhalinin sosial müdafiəsinin gücləndirilməsi və ünvanlılıq prinsipinin təmin olunması, yeni iş yerlərinin yaradılması, əhalinin məşğulluğunun gücləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər barədə məlumat vermişdir.

Mərkəzin əməkdaşı Həsrət Ağamoğlanov, təhsil şöbəsi müdirinin müavini Yaşar Nəzirov, turizm və otelçilik üzrə peşə tədris mərkəzinin direktoru Eyvaz Kazımov, DİİXİ Həmkarlar İttifaqının Qəbələ Rayon Komitəsinin sədri Pərviz Sabirli və digərləri sığorta ödənişini alan şəxsin işsiz kimi qeydiyyata götürülməsi şərtlərinin və müddətlərinin müəyyən edilməsi ilə əlaqədar işəgötürənlərin vəzifələri, həmçinin əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsi, işə düzəlməkdə çətinlik çəkən vətəndaşların məşğulluğunun təmin olunması sahəsində birgə əməkdaşlıq haqqında keçirilən müzakirədə fəal iştirak ediblər.

Tədbiri rayon məşğulluq mərkəzinin direktoru Elxan Səlimov yekunlaşdırıb.

**"Qəbələ"**
**İlkin Vəlizadə (foto).**

# Səkkiz kəndin yolu yenidən qurulur

Qəbələ rayonu ərazisində Nic-Mıxlıqovaq-Yemişanlı-Uludaş-Tikanlı-Abrıx yaşayış məntəqələrini əhatə edən avtomobil yolu yenidən qurulur.

Layihəyə əsasən 18 kilometrlik yol V texniki dərəcədən IV texniki dərəcəyə uyğun yenidən qurulur, eni 6-7 metrdən 10 metrə qədər genişləndirilir.

Yenidənqurma işləri çərçivəsində hazırda yol qurğularının inşası və əsaslı şəkildə bərpası aparılır. Belə ki, yolboyu mövcud körpülər təmir ediləcək, yolun altındakı suötürücü borular bərpa olunacaq, yeni su keçidləri qoyulacaq.

Yolun yenidən qurulmasının qısa müddətdə başa çatdırılması nəzərdə tutulmuşdur.

Nic-Mıxlıqovaq-Yemişanlı-Uludaş-Tikanlı-Abrıx avtomobil yolu hazırda torpaq və çınqıl örtüklü olduğu üçün gedişgəlişdə yaşanan çətinliklər yenidən qurulmadan sonra geridə qalacaq. Yeni yolla respublika əhəmiyyətli Qaraməryəm-İsmayıllı-Şəki avtomobil yoluna çıxış əldə olunacaqdır ki, bu da 8 yaşayış məntəqəsinin hər birinə müasir infrastruktur, rahatlıq və abadlıq gətirəcək.

**"Qəbələ"**